

■ Vaqif Əliyev

## BƏLA GƏLSƏ

İnsana bəla gəlsə
ağılsız başdan gələr.
Abırsızın etdiyi
yersiz göz-qaşdan gələr.
Düşər tez-tez cəncələ
boşboğaz da dilindən,
Bəzən də qızışanın
bəla gələr belindən.
Başda ağıl yoxdusa
sahibi donuz gudər.
Ona öyüd-nəsihət
versən də hədər gedər.
Qorumasa nəfsini
baş da bəlasın çəkər.
Düşünməyib danışan
sözünə olar nökər.
İnsana bəla gəlsə
çox vaxt özündən gələr.
Yaxşılıqlar nankorun
bir vaxt gözündən gələr!

## GÜLSÜN HƏYAT

Günah edən bir insan
cəzasını çəkəcək.
Nə əkibsə həyatda
yalnız onu biçəcək.
Xeyirxahlıq toxumu
gəlin səpək hər yana.
Ürəklərdə duyğular,
xoş arzular oyana.
Gülsün həyat həmişə
məzlumların üzünə.
Hamı mehriban olsun
işlər getsin düzünə.
Dünyaya hər gələnin
daim xoş olsun günü.
Çətinliklər içində
keçirməsin ömrünü.
Həmişə dünyada sülh,
hər tərəf çiçək olsun
Olmasın vaxtsız ölüm
insan sevincək olsun!

## ACI SÖZ

Səni səsləməyə nə üzlə gəlim?
Hansı bir baxışla, mən gözlə gəlim?
Neyləyim, nə edim bağışlayasan,
Könlünü oxşayan nə sözlə gəlim?

Hər şeyə son qoydu bir acı kəlmə,
Oldu sevən qəlbə bir sancı kəlmə.
Dedin ki; - yaxşıca tanıdım səni,
Mənimlə bir daha üz-üzə gəlmə!

İnsanı qocaldan sevgisiz ildi
Dünyanın acısı, şirini; dildi.
Sonradan peşmanlıq keçirən könül
Yaxşı ki, səhvini anladı, bildi.

Səninlə çətindi indi barışıq,
Etmişəm kələfin ucun dolaşıq.
Nə olar, nə olar keç günahımdan,
Yenidən dünyama işıq ver, işıq!

Sağalmaz deyirlər sözün yarası,
Olmusan gözümün ağı, qarası.
Dözmək çox çətindir bu sənsizliyə,
Qalıbdır qəlbimin səndə parası.

Nə qədər istərsən, incit doyunca,
Məni öldürəydin tənha qoyunca.
Getdiyin yollara zillənir gözüm,
Hər gün mən baxıram o yol boyunca.

## GÖRƏN NƏ VAXT

Sevincləri üstələyib qəm, kədər
Dərd çoxunu eyləyibdir dərbədər.
Bu dünyanın xilaskarı yatıbdır,
Güman yoxdu kimsə onu tərpədə.

Zamanın da çarxı dönür geriyə,
Ona imkan vermirlər ki, yeriyə.
Sıxlaşıbdır şeytanların sırası,
İnanmıram bu bayquşlar kiriyə

Heç Allahdan yox onların qorxusu,
Cənnətdədir namərdlərin çoxusu.
Görən nə vaxt bu dünyada ay Allah
Qəriblərin çin olacaq yuxusu

Baş qoymağa gecə yoxdu yerimiz,
Yer tapmayır yaşamağa dirimiz.
Qohumlar da müşkül işə düşəcək
Qəriblikdə ölsə əgər birimiz.

## AY DƏNİZ

Dalğalar sahilə özünü atır,
Bəlkə sən deyəsən niyə, ay dəniz!.
İndi qarşındayam
günəş də batır.
Yoxdur böyüklükdə sənə tay, dəniz.

Dalğalar sahilə qəzəblə cumar,
Quşların üstünə o çəkər tumar.
Könlüm sularından balıq da umar,
Vermə ilbizindən mənə pay, dəniz.

İlbizlə doludur görürəm bətnin,
Səninlə ünsiyyət qurmaq çox çətin.
Xoşuma gəlməyir düzü xislətin,
Edibdir ilbizlər səni zay, dəniz.

Günahkar özünsən, girdin araya,
Nədən çırpınırsan ora-buraya?
Ölkələr düzülüb sıra-sıraya,
Sən baxıb onları bir-bir say, dəniz.

Mənə doğma dəniz bir tək Xəzərdi,
Oxşayıb könlümü hər vaxt bəzərdi.
Qəribə qıydığın hey dərdi-sərdi,
Yenə kimsə batdı, düşdü vay, dəniz.



kaspi.-2016.-15-18 oktyabr.-S.21.